AZERBAIJANI VERSION



WORLD CHESS HALL OF FAME & GALLERIES

Saint Louis CHESS CLUB

Şahmat

OXUMAĞI & YAZMAĞI

ÖYRƏN

Müəllif: Cin Kerns Sinkfild (Jeanne Cairns Sinquefield)

Azərbaycan dilinə tərcümə: QM Vasif Durarbəyli

Şahmat gedişlərini oxumağı və yazmağı bilmədən də şahmat oynamaq olar. Mən şahmat oynamağı evimizin arxa eyvanında babamdan öyrənmişəm. Nə o, nə də mən şahmat kitablarının olduğunu və gedişləri yazmaq lazım gəldiyini bilirdik. Sadəcə oynayırdıq. Bu yaxınlarda qərara gəldim ki, şahmatda da oxuyub-yazmağı öyrənməliyəm.

Şahmat gedişlərini oxumağı və yazmağı öyrədən mövcud materialların heç biri xoşuma gəlmədi. Onlar həddindən artıq mürəkkəb idi və yalnız oxumağa əsaslanırdı. Mənim hazırladığım vəsait isə oxumağı, danışmağı, yazmağı və fiqurları əllə hərəkət etdirməyi birləşdirir. Lazım olan bilikləri də sadə hissələrə ayırır: a) fiqurların adları; b) xanaların işarələri; c) gediş növlərinin yazılışı; d) a-c hissələrini birləşdirərək oyunu oxumaq və yazmaqla əlaqələndirmək.

Mən öz yaşımda (70-dən yuxarı) bunu öyrənə bilirəmsə, hər kəs öyrənə bilər.

Cin Kerns Sinkfild

Sent-Luis Şahmat Klubunun həmtəsisçisi



Təşəkkürlər

Bu layihəyə Sent-Luis Şahmat Klubunun və Dünya Şahmat Şöhrət Mərkəzinin əməkdaşları, eləcə də qrosmeysterlərdən tutmuş yeni başlayanlaradək bir çox şahmatçı kömək edib. Şahmat taxtasındakı xanaların işarələrini mənə öyrədən nəvəm Loqana (Logan) və hər kəsin şahmat oynamalı olduğunu düşünən həyat yoldaşım Reksə (Rex) xüsusi təşəkkürümü bildirirəm.

© 2018 Cin Kerns Sinkfild

Versiya 10.

Bütün hüquqlar qorunur. Nəşriyyatın yazılı icazəsi olmadan bu kitabın heç bir hissəsi hər hansı formada və ya hər hansı vasitə ilə, mexaniki, elektron, surətçıxarma, səsyazma və ya başqa üsulla , çoxaldıla, məlumat axtarış sistemində saxlanıla və ya ötürülə bilməz.

Nəşr edən və yayan: Dünya Şahmat Şöhrət Mərkəzi

4652 Maryland Avenue, Saint Louis, Missouri 63108

worldchesshof.org

ABŞ Konqres Kitabxanasının nəzarət nömrəsi: 2019904789

ISBN: 978-0-9981536-1-2

Bir çox şahmatçı şahmat gedişlərini oxumağı və yazmağı bilmir.

Bu, şahmatda inkişaf etməyə mane olur. Amma bunu öyrənmək çətin deyil. Öyrəniləcək dörd mərhələ bunlardır: **a) şahmat fiqurlarının hərf işarələri; b) şahmat taxtasındakı xanaların işarələri; c) şahmatda xüsusi gediş növləri; d) a-c hissələrini birləşdirərək oyunun gedişlərini yazmaq və oxumaq**.

YERİNƏ YETİRƏCƏYİN TAPŞIRIQLAR!!!!

Şahmat fiqurlarının adları və hərf işarələri var

Şəkil 1.



Şah (**Ş**) | Vəzir (**V**) | Top (**T**) | Fil (**F**) | At (**A**)

(1) **Hər fiqurun adını və hərfini YAZ.**
(Piyada üçün hərf yoxdur.)

(2) **Ortadakı kağız şahmat taxtasını ÇIXAR.**

(3) **Piyadalar istisna olmaqla, hər şahmat fiqurunun üzərinə onun hərf işarəsini (Ş, V, T, F və ya A) YAZ.**

(4) **Şahmat fiqurlarını ayrı-ayrılıqda KƏSİB ÇIXAR.**
Onları şüşə qapaqlarının və s. üzərinə yapışdırmaq olar.



© 2018 Cin Kerns Sinkfild. Bütün hüquqlar qorunur.

Şahmat taxtasında şaquli və üfüqi xətlər, eləcə də xanalar var.

Şahmat taxtasının **şaquli xətləri (a,b,c,d,e,f,g,h) hərfləri**, **üfüqi xətləri** isə **(1,2,3,4,5,6,7,8) rəqəmləri** ilə işarələnir. Taxtada 8 şaquli xətt, 8 üfüqi xətt və 64 xana var. Xana şaquli xəttin hərfi və üfüqi xəttin rəqəmi ilə göstərilir; məsələn, a1 və ya h7.

Şəkil 2. Şaquli və üfüqi xətlər, eləcə də xanalar göstərilmiş taxta.



(5) Kağız şahmat taxtasında şaquli xətlərin hərflərini və üfüqi xətlərin rəqəmlərini YAZ.

Şaquli xətlər: a, b, c, d, e, f, g, h. Üfüqi xətlər: 1, 2, 3, 4, 5, 6, 7, 8. Şəkil 2 ilə yoxla.

(6) Kağız şahmat taxtasında bütün xanaları YAZ (hamısı 64-dür).

Məsələn, a1, a2 və beləcə h8-ə qədər. Şəkil 2 ilə yoxla.

(7) Hər xananı GÖSTƏR və DE. Məsələn, f6.

(8) Taxtaya beş fiqur YERLƏŞDİR. Fiqurun hərf işarəsini və durduğu xananı DE. Məsələn, Ta1.

© 2018 Cin Kerns Sinkfild. Bütün hüquqlar qorunur.

(9) Şahmat taxtasında mövqeləri QUR.

Fiqurun taxtadakı yeri onun hərf işarəsi və durduğu xananın işarəsi ilə göstərilir. Piyadalar üçün isə yalnız xananın işarəsi yazılır. Məsələn, e6 xanasındakı şah Şe6, g2 xanasındakı piyada isə g2 kimi yazılır.

9a. Kağız şahmat taxtasında mövqeyi QUR, fiqurların yerlərini DE, sonra isə YAZ.

Ağlar: Ta1, Ab1, Fc1, Vd1, Şe1, Ff1, Ag1, Th1

YAZ _____

Ağ piyadalar: a2, b2, c2, d2, e2, f2, g2, h2

YAZ _____

Qaralar: Ta8, Ab8, Fc8, Vd8, Şe8, Ff8, Ag8, Th8

YAZ _____

Qara piyadalar: a7, b7, c7, d7, e7, f7, g7, h7

YAZ _____

Şəkil 3a ilə yoxla.

Şəkil 3a. Başlanğıc mövqe



FAYDALI MƏSLƏHƏTLƏR

Vəzir öz rəngində olan xanada yerləşir.

Sağdakı top həmişə ağ xanada yerləşir.

9b. Kağız şahmat taxtasında mövqeyi QUR, fiqurların yerlərini DE, sonra isə YAZ.

Ağlar: Ta1, Ac3, Vd2, Şe1, Ff1, Ag1, Th1

YAZ _____

Ağ piyadalar: a2, b2, c2, d4, e5, f2, g2, h2

YAZ _____

Qaralar: Ta8, Ab8, Fc8, Ve7, Şe8, Ad7, Th8

YAZ _____

Qara piyadalar: a7, b7, c7, d5, e6, f7, g7, h7

YAZ _____

Şəkil 3b ilə yoxla.

Şəkil 3b.



© 2018 Cin Kerns Sinkfild. Bütün hüquqlar qorunur.

Şahmatda xüsusi gediş növləri

Şahmat gedişləri müəyyən ardıcıllıqla yazılır; bax: **Şəkil 4**. Gedişlərin yazılışında fiqurların hərf işarələrindən (**Şəkil 1**), xanaların işarələrindən (**Şəkil 2**), xüsusi simvollardan və notasiya işarələrindən (**Şəkil 4**) istifadə edilir.

Şəkil 4. Şahmat gedişlərinin yazılış ardıcıllığı

SİMVOL	GEDİŞİN ADI	QEYDLƏR
	Fiqurun hərf işarəsi	Ş, V, T, F və ya A mütləq göstərilir. Piyada üçün hərf yazılmır.
	Başlanğıc xana	Eyni növdən olan bir neçə fiqur eyni son xanaya gedə bilirsə, göstərilir. Məsələn, Agf2, T1a3, cxd4.
x	Vurma	Məsələn, Axa5: at a5 xanasındakı fiquru vurur; dxe7: piyada ilə vurma.
	Son xana	Mütləq göstərilir. Məsələn, d5: piyada gedişi; Tf5: topun getdiyi son xana f5-dir.
ep	Keçiddə vurma	Məsələn, gxf6ep: g şaquli xəttindəki piyada ilə keçiddə vurma.
=	Piyadanın çevrilməsi	Məsələn, e8=V: piyada e8 xanasına gedir və vəzirə çevrilir.
+	Şah	Məsələn, Fh3+: fil h3 xanasına gedərək rəqibin şahına hücum edir, yəni şah verir.
# və ya ++	Mat	Məsələn, Ve7#: vəzir e7 xanasına gedərək rəqibin şahını mat edir.
XÜSUSİ GEDİŞLƏR. Bax: Şəkil 9.		
0-0	Qısa qalaqurma, şah cinahında	Ağlar: Şg1, Th1f1. Qaralar: Şg8, Th8f8.
0-0-0	Uzun qalaqurma, vəzir cinahında	Ağlar: Şc1, Ta1d1. Qaralar: Şc8, Ta8d8.

(10) Kağız şahmat taxtasında başlanğıc mövqeləri QUR və GEDİŞLƏRİ ET.

Nümunələri ucadan DE. Sadə qayda: yazılış ardıcıllığı deyilənlərin ardıcıllığına uyğundur.

Mümkün başlanğıc xanalar mötərizədə () verilib.

ŞAHMAT GEDİŞLƏRİNƏ AİD YAYĞIN NÜMUNƏLƏR

a4 Piyada a4 xanasına gedir; məsələn, a2-dən.

g6 Piyada g6 xanasına gedir; məsələn, g5-dən.

Fd2 Fil d2 xanasına gedir; məsələn, c1-dən.

Ae3 At e3 xanasına gedir; məsələn, g2-dən.

Axf2 At f2 xanasındakı fiquru vurur; məsələn, g4-dən.

dxe7 d şaquli xəttindəki piyada e7 xanasındakı fiquru vurur; məsələn, d6-dan.

Agf2 At g4 xanasından f2 xanasına gedir.

və ya A4f2 (Başlanğıc xana lazım gəldikdə g şaquli xəttini və ya 4-cü üfüqi xətti əlavə et.)

gxf5 g şaquli xəttindəki piyada f5 xanasındakı fiquru vurur. Bax: Şəkil 5. Piyada ilə vurma zamanı onun başladığı şaquli xəttin hərfini yaz.

e8=V Ağ piyada e8 xanasında vəzirə çevrilir; məsələn, e7-dən gedir. Bax: Şəkil 7.

Fh3+ Fil h3 xanasına gedir, şah verir.

Vc2# Vəzir c2 xanasına gedir, mat edir. Bax: Şəkil 8b.

© 2018 Cin Kerns Sinkfild. Bütün hüquqlar qorunur.

KAĞIZ ŞAHMAT TAXTASINI ÇIXAR

CHESS

WWW.Chess2Go.Net

2 GO Müallifiik hüququ © 2013. Patent üçün müraciət edilib.

CHESS www.Chess2Go.Net

2GO Müəlliflik hüququ © 2013. Patent üçün müraciət edilib.

KAĞIZ ŞAHMAT TAXTASINI ÇIXAR

(11) Kağız şahmat taxtasında mövqeləri QUR, gedişləri DE və ET.

Hər gediş nümunəsini şahmat taxtasında oyna.

(12) Şəkil 5-9-un altındakı sətirlərdə gedişləri notasiya ilə YAZ.

Şəkil 5-9. Taxta üzərində xüsusi gediş növlərinə aid nümunələr.

5. Vurma x Piyada x

Axa5

gxf5 (2 piyada vura biləcəyini nəzərə al)



YAZ _____

6. Keçiddə vurma ep

Ağ b4-ə gedir. Qara b4-ü vurur, b3 xanasına keçir: cxb3ep.



YAZ _____

7. Piyadanın çevrilməsi =

Piyada f8 xanasına gedir və vəzirə çevrilir: f8=V.



YAZ _____

8a. Şah +

Fc5+



YAZ _____

8b. Mat

Vc2#



YAZ _____

9. Qalaqurma

Vəzir cinahında: 0-0-0.

Şah cinahında: 0-0.



YAZ _____

© 2018 Cin Kerns Sinkfild. Bütün hüquqlar qorunur.

Şahmat gedişlərini yazmaq və oxumaq

İndi yazılı notasiyadan (gedişlərdən) istifadə edərək bir oyun oynamaq vaxtıdır.

(13) Aşağıdakı oyunu kağız şahmat taxtanda OYNA.

Şəkil 3a-dakı başlanğıc mövqedən İSTİFADƏ ET. Son mövqeyi Şəkil 11 ilə yoxla.

Şəkil 10. Uşaq matı

	AĞLAR	QARALAR
1.	e4	e5
2.	Fc4	Fc5
3.	Vh5	Aa6
4.	Vxf7#	1-0

Şəkil 11.



(14) Bir yoldaşla şahmat oyunu OYNA.

Gedişləri oyun blankına yaz. Blank nümunəsi növbəti səhifədədir. 4 gedişdən sonra yoldaşının blankındakı qeydlərin səninkilərlə eyni olub-olmadığını yoxla. Oyunu sona çatdır.

(15) Oyun blankındakı qeydlərdən istifadə edərək oyunu YENİDƏN OYNA.

Onu yenidən oynaya bilirsənmi?

(16) Oyun blanklarından istifadə edərək daha altı oyun OYNA.

Həm ağlarla, həm də qaralarla oyna. Hər 4 gedişdən bir qeydləri yoxla. Oyunu yenidən oynaya bilirsənmi?

(17) Gedişləri kitablardakı yazılış formasına uyğun OYNA. Başlanğıc mövqedən İSTİFADƏ ET.

Kitablardakı yazılış belədir: gedişin nömrəsi, ağların gedişi, qaraların gedişi.

1. e4 e5 2. Af3 Ac6 3. Fb5 a6 4. Fa4 b5 5. Fb3 Af6

(18) Başqa birinə şahmat gedişlərini oxumağı və yazmağı ÖYRƏT.

Təbriklər! Artıq şahmat gedişlərini oxuya və yaza bilirsən. Daha da yaxşı öyrənmək üçün daha çox oyun oyna və gedişlərini yaz. Kitablardakı oyunları da taxta üzərində oyna.

© 2018 Cin Kerns Sinkfild. Bütün hüquqlar qorunur.

SAINTLOUISCHESSCLUB.ORG
(314) 361-CHESS (2437)

YARIŞ			TARİX
TUR	TAXTA	BÖLMƏ	VAXT NƏZARƏTİ

AĞLAR			QARALAR		
	AĞLAR	QARALAR		AĞLAR	QARALAR
1			31		
2			32		
3			33		
4			34		
5			35		
6			36		
7			37		
8			38		
9			39		
10			40		
11			41		
12			42		
13			43		
14			44		
15			45		
16			46		
17			47		
18			48		
19			49		
20			50		
21			51		
22			52		
23			53		
24			54		
25			55		
26			56		
27			57		
28			58		
29			59		
30			60		

NƏTİCƏ:	AĞLAR QAZANDI	HEÇ-HEÇƏ	QARALAR QAZANDI
İMZA		İMZA	

SAINTLOUISCHESSCLUB.ORG
(314) 361-CHESS (2437)

YARIŞ			TARİX
TUR	TAXTA	BÖLMƏ	VAXT NƏZARƏTİ

AĞLAR			QARALAR		
	AĞLAR	QARALAR		AĞLAR	QARALAR
1			31		
2			32		
3			33		
4			34		
5			35		
6			36		
7			37		
8			38		
9			39		
10			40		
11			41		
12			42		
13			43		
14			44		
15			45		
16			46		
17			47		
18			48		
19			49		
20			50		
21			51		
22			52		
23			53		
24			54		
25			55		
26			56		
27			57		
28			58		
29			59		
30			60		

NƏTİCƏ:	AĞLAR QAZANDI	HEÇ-HEÇƏ	QARALAR QAZANDI
İMZA		İMZA	

SAINTLOUISCHESSCLUB.ORG
(314) 361-CHESS (2437)

YARIŞ			TARİX
TUR	TAXTA	BÖLMƏ	VAXT NƏZARƏTİ

AĞLAR			QARALAR		
	AĞLAR	QARALAR		AĞLAR	QARALAR
1			31		
2			32		
3			33		
4			34		
5			35		
6			36		
7			37		
8			38		
9			39		
10			40		
11			41		
12			42		
13			43		
14			44		
15			45		
16			46		
17			47		
18			48		
19			49		
20			50		
21			51		
22			52		
23			53		
24			54		
25			55		
26			56		
27			57		
28			58		
29			59		
30			60		

NƏTİCƏ:	AĞLAR QAZANDI	HEÇ-HEÇƏ	QARALAR QAZANDI
İMZA		İMZA	

SAINTLOUISCHESSCLUB.ORG
(314) 361-CHESS (2437)

YARIŞ			TARİX
TUR	TAXTA	BÖLMƏ	VAXT NƏZARƏTİ

AĞLAR			QARALAR		
	AĞLAR	QARALAR		AĞLAR	QARALAR
1			31		
2			32		
3			33		
4			34		
5			35		
6			36		
7			37		
8			38		
9			39		
10			40		
11			41		
12			42		
13			43		
14			44		
15			45		
16			46		
17			47		
18			48		
19			49		
20			50		
21			51		
22			52		
23			53		
24			54		
25			55		
26			56		
27			57		
28			58		
29			59		
30			60		

NƏTİCƏ:	AĞLAR QAZANDI	HEÇ-HEÇƏ	QARALAR QAZANDI
İMZA		İMZA	

Şahmat məşqçiləri üçün oyunlar

Cinin şahmat notasiyasını öyrədən oyunları

1. Fiqurların adları: Ş, V, T, F, A və P hərfləri.

a. Fiquru göstər, uşaqlar onun hərf işarəsini ucadan desinlər.

b. Fiqurun hərf işarəsini de, uşaqlar uyğun fiquru götürsünlər.

c. Fiquru göstər, uşaqlar onun hərf işarəsini yazsınlar. Ən çox düzgün cavab verən iştirakçı və ya iştirakçılar qalib gəlir.

2. Xanaların işarələri: a, b, c, d, e, f, g, h; 1-8.

a. Taxtada bir xana göstər, uşaqlar onun işarəsini ucadan desinlər; məsələn, d3.

b. Taxtada bir xana göstər, uşaqlar onun işarəsini yazsınlar; məsələn, a4. Ən çox düzgün cavab verən iştirakçı və ya iştirakçılar qalib gəlir.

c. Xananın işarəsini de, uşaqlar fiquru taxtada həmin xanaya yerləşdirsinlər.

d. Xananın işarəsini de, uşaqlar onun ağ, yoxsa qara olduğunu desinlər.

e. Ağ və qara fiqurların yerləşdiyi xanaların yazılı siyahısını göstər, uşaqlar bütün fiqurları taxtaya yerləşdirsinlər. Bu üsuldan mövqe qurmaq üçün istifadə et. Bütün fiqurları düzgün xanalara ən tez yerləşdirən iştirakçı və ya iştirakçılar qalib gəlir.

3. Gedişlərin adları: vurma (x), qalaqurma (0-0, 0-0-0), keçiddə vurma, şah (+), mat (++).

a. Gediş adlarının siyahısını göstər, uşaqlar onların notasiya işarələrini yazsınlar. Tapşırığı düzgün və ən tez yerinə yetirən iştirakçı və ya iştirakçılar qalib gəlir.

b. Bir gediş et, uşaqlar onun notasiyasını ucadan desinlər.

c. Bir neçə gediş et, uşaqlar onların notasiyasını yazsınlar. Bütün gedişləri düzgün yazan iştirakçı və ya iştirakçılar qalib gəlir.

4. Oyunun gedişləri: fiqurun, başlanğıc xananın, gedişin və son xananın notasiyası.

a. Bir gediş et, bir uşaq onun notasiyasını ucadan desin: fiqur, başlanğıc xana, gediş, son xana.

b. Bir neçə gediş və ya bütöv bir oyun oyna, uşaqlar tam notasiyanı yazsınlar. Hamısını düzgün yazan qalib gəlir.

c. Oyunun gedişlərinin siyahısını göstər, uşaqlar həmin gedişləri taxtada oynasınlar. Düzgün son mövqeni ən qısa vaxtda alan qalib gəlir.

Qaliblərin nəticələrini yoxlamaq üçün müəllim 1c, 2b, 2e, 3a, 3c, 4b və 4c tapşırıqlarına aid siyahıları əvvəlcədən hazırlamalıdır. Kiçik uşaqlar notasiyanı yavaş yaza və oxuya bilərlər. Buna görə tapşırıqları 1a, 1b, 2a, 2c, 2d, 3b və 4a ilə məhdudlaşdırmaq olar.

© 2018 Cin Kerns Sinkfild. Bütün hüquqlar qorunur.

“Bu kitab hər bir şahmatçıya şahmat gedişlərini oxumağı və yazmağı öyrənməkdə kömək edəcək. O, valideynlər və məşqçilər üçün də əla vəsaitdir. Kaş bunu daha kiçik yaşlarımda öyrənəydim.”

Toni Riç (Tony Rich), Sent-Luis Şahmat Klubunun icraçı direktoru

“Şahmatı çətin və öyrənilməsi müşkül bir oyun hesab edirlər. Bu, doğru deyil! Şahmat gedişlərini oxumağı və yazmağı öyrənəndə hər şey xeyli asanlaşır. Mən oxumağı 4 yaşımda öyrənmişəm.”

Qrosmeyster Yasser Seiravan (Yasser Seirawan), dördqat ABŞ şahmat çempionu

“Bu kitabçadan sinifdə uşaqlara kömək etmək üçün istifadə etmək olar.

a) Oxumağı, yazmağı və göstərişlərə əməl etməyi öyrənmək.

b) Qanunauyğunluqları tanımaq üçün məkan qavrayışını inkişaf etdirmək.

c) Yadda saxlamaq bacarıqlarını və problemləri həll etmək strategiyalarını inkişaf etdirmək.”

Karen Vulf (Karen Wulff), təqaüdə çıxmış ikinci sinif müəllimi

Saint Louis CHESS CLUB

WORLD CHESS HALL OF FAME & GALLERIES

Sent-Luis Şahmat Kompleksi

saintlouischessclub.org | worldchesshof.org